# HEYDƏR ƏLİYEV VƏ AQRAR İSLAHATLARIN AZƏRBAYCAN MODELİ

## *Aqrar islahatların birinci mərhələsi - bazar münasibətlərinə və özəl mülkiyyətə əsaslanan təsərrüfatçılıq sistemi formalaşdırıldı, bunun hesabına keçid dövründə baş verən böhran aradan qaldırıldı*

**(əvvəli 3-cü səhifədə)**

Ölkədə heyvandarlığın intensiv ferma modeli əsasında inkişaf etdirilməsi hazırda aqrar siyasətin əsas istiqamətlərindən biri kimi müəyyən olunub. Yüksək məhsuldarlıqlı heyvanlarla təminatın yaxşılaşdırılmasına dəstək məqsədilə 2009-2016-cı illər ərzində 22829 baş, o cümlədən son 3 il ildə 14125 baş iribuynuzlu cins mallar "Aqrolizinq" ASC vasitəsilə Avropa ölkələrindən alınaraq dəyərinin 50 faizi həcmində güzəştli qiymətə lizinq şərtləri ilə sahibkarlara satılmışdır.

Heyvandarlığın cins tərkibinin yaxşılaşdırılması məqsədilə institusional potensialın gücləndirilməsi və lazımi infrastrukturun yaradılması istiqamətində də zəruri dövlət dəstəyi həyata keçirilir. Belə ki, Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan ayrılmış vəsait hesabına Respublika Süni Mayalama Mərkəzinin Avropadan cəlb olunmuş ekspertlərin iştirakı ilə köklü şəkildə modernləşdirilməsi həyata keçirilib. Həmçinin, cənab Prezident tərəfindən imzalanmış 19 avqust 2015-ci il tarixli Sərəncama əsasən yüksək məhsuldar genetik potensialı olan heyvanların baş sayının artırılması və bu sahəyə marağın gücləndirilməsi üçün süni mayalanma yolu ilə alınmış hər baş buzova görə heyvan sahiblərinə 100 manat həcmində subsidiyanın verilməsinəbaşlanılmışdır.

Dövlət başçısının *"Kənd təsərrüfatının inkişafında ən müasir, mütərəqqi metodlar tətbiq edilməlidir"* tapşırığına uyğun artıq Azərbaycanda da aqro-ərzaq məhsulları istehsalı sahəsində XXI əsrin müasir biznes texnologiyası olan aqroparkların yaradılmasına start verilmişdir. 2014-cü il noyabr ayında dövlət başçısının iştirakı ilə təməli qoyulan "Şəmkir Aqropark"ın qurulmasının ardınca, Xaçmaz rayonunun Yalama qəsəbəsində "Yalama Aqropark"ın, Xızı rayonunun Yeni Yaşma kəndində "Xızı Aqropark" yaradılmasına başlanılmışdır. Dövlət başçısının tapşırığına əsasən bölgələrdə ən azı 10 aqropark yaradılacaqdır.

Məhsul bolluğunun yaradıldığı və insanların aqrar sahəyə böyük həvəslə yanaşdığı



hazırkı vaxtda, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün bazar şərtlərinin daha da yaxşılaşdırılması aqrar siyasətin qarşısında mühüm vəzifə kimi durur. O cümlədən, dünya təcrübəsində kənd təsərrüfatının dövlət tənzimlənməsinin ən mühüm alətlərindən biri kimi çıxış edən bazar intervensiyası sisteminin qurulması da aktuallaşmışdır. Bu baxımdan dövlət sifarişi ilə ərzaq məhsullarının yerli istehsalçılardan satınalınmasının mərkəzləşdirilmiş qaydada həyata keçirilməsini təmin etmək məqsədi ilə "Ərzaq məhsullarının tədarükü və təchizati" ASC-nin yaradılması, həm də kənd təsərrüfatı məhsulları bazarına intervensiya tədbirlərinin həyata keçirilməsi baxımından mühüm tənzimləmə aləti kimi çıxış mühüm əhəmiyyət kəsb edir.

### Azərbaycanda həyata keçirilən aqrar islahatlar hesabına kənd təsərrüfatında dinamik inkişaf təmin olunmuşdur

Azərbaycanda aqrar islahatların birinci mərhələsinin başlamasından ötən 20 illik dövr ərzində kənd təsərrüfatı məhsulları istehsalı sahəsi bütövlükdə 2,4 dəfə, o cümlədən bitkiçilik sahəsi 2,3 dəfə, heyvandarlıq sahəsi isə 2,5 dəfə böyümüşdür. 1996-2016-cı illər ərzində taxıl istehsalı 1 milyon 18 min tondan 3 milyon 65 min tona **(3 dəfə artım)**, kartof istehsalı 214,6 min tondan 902,4 min tona **(4,2 dəfə artım)**, tərəvəz istehsalı 570 min tondan 1 milyon 269 min tona **(2,2 dəfə artım)**, bostan məhsulları 52 min tondan 464,5 min tona **(9 dəfə artım)**, ət istehsalı 115,7 min tondan 303,8 min tona **(2,6 dəfə artım)**, süd istehsalı 843,3 min tondan 2 milyon 9 min tona **(2,4 dəfə artım)**, yumurta istehsalı 477 milyon ədəddən 1,6 milyard ədədə **(3,4 dəfə artım)** çatdı.

Aqrar sahədə istehsal potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən kompleks tədbirlər hesabına ölkənin ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi də əsaslı şəkildə yüksəlmişdir. Əgər Azərbaycan dövlət müstəqilliyini əldə etdiyi vaxt ət və süd məhsulları ilə ölkənin özünütəminat səviyyəsi təqribən 30-35 faiz təşkil edirdisə, hazırda ölkənin bu məhsullar üzrə özünütəminat səviyyəsi müvafiq olaraq 94 və 88 faizə qədər artmışdır. Həmin dövrdə ölkənin kartofa olan tələbatının ödənilməsində idxal böyük paya malik idisə, hazırda özümüzü təminetmə səviyyəsi 86 faizdir, üstəlik hazırda hər il təqribən 40 min tondan çox təzə kartof ixrac edirik. Bütün növ tərəvəz ilə özünütəminetmə səviyyəsi 96 faiz, meyvə və giləmeyvə ilə üzrə isə 122 faiz təşkil edir.

Yerli istehsal potensialının güclənməsi hesabına ölkəmzin ixrac bazarlarında iştirakı səviyyəsi də əsaslı şəkildə yüksəlmişdir. Belə ki, 2001-2015-ci illər ərzində kənd təsərrüfatı və ərzaq məhsulları ixracının həcmi 11,1 dəfə, o cümlədən ilkin kənd təsərrüfatı məhsullarının ixracı 8,5 dəfə, emal olunmuş kənd təsərrüfatı məhsullarının ixracı isə 14,7 dəfə artmışdır. Malların ticarəti üzrə beynəlxalq hesabatlara əsasən 2001-2015-ci illər ərzində kənd təsərrüfatı və ərzaq məhsulları üzrə qlobal ixracda Azərbaycanın payı 0,014 faizdən 0,054 faizə yüksəlmişdir.

Ölkədə dayanıqlı inkişaf prinsiplərinə əsaslanmaqla, rəqabətqabiliyyətli kənd təsərrüfatı məhsullarının istehsalı və emalı sektorunun formalaşdırılmasına nail olmaq baxımından əlverişli mühitin yaradılması məqsədilə 9 strateji hədəfin reallaşdırılmasını nəzərdə tutan Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi"nin 2016-2020-ci illər ərzində icrası çərçivəsində aqrar islahatların müasir mərhələsi uğurla davam etdiriləcək.

Əminliklə deyə bilərik ki, cənab Prezident tərəfindən qəbul edilmiş Strateji Yol Xəritəsinin həyata keçirilməsi hesabına ümummilli liderin müəllifi olduğu Azərbaycanın aqrar inkişaf modeli yeni nailiyyətlərlə xarakterizə olunacaq.

**Heydər ƏSƏDOV,**
**kənd təsərrüfatı naziri.**